***FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ***

**UOT:31.**

# SOSİAL İŞİN AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL MÜDAFİƏ SİSTEMİNƏ İNTEQRASİYA PROSESİ

***Dosent Məmmədov Asim Şəfayət oğlu Bağırova Aysel Rauf qızı***
***Gəncə Dövlət Universiteti***
**b.aysel@yahoo.com, asim_gdu@yahoo.com**

**Anotasiya.** *Sosial iş təşəkkül tapdığı ilk dövrdə yoxsullara və məzlumlara kömək məqsədi daşıyırdı. Hazırda sosial iş və sosial xidmətlərin əhatə dairəsi xeyli genişlənmiş, təkcə yoxsulluq və yoxsulluğun səbəb olduğu problemləri olan insanlara deyil, sinif və gəlir səviyyələrindən asılı olmayaraq ehtiyacı olanların hamısına kömək məqsədi daşıyır.*

*Sosial iş, XIX əsrdə bir peşə sahəsi olaraq ortaya çıxdı. ABŞ-da olduğu kimi, İngiltərədə də XIX əsrdə meydana gəldi. İlk sosial iş təhsili 1898-ci ilin yayında Kolumbiya Universitetində təşkil edildi. Professional mənada ilk soisla işçilər, İngiltərədə ölkənin xəstəxanalarında çalışan sağlamlıq mütəxəssisləri idi.*

*Sosial iş Azərbaycanda XX əsrin əvvəllərində xeyriyyəçilik formasında yaranmış və humanist dəyərlərə əsaslanmışdı. Başlanğıcda bu cür sosial dəstək müxtəlif xeyriyyəçilik fəaliyyətləri şəklində həyata keçirildi, lakin tədricən təşkilati xarakter və forma qazandı.*

*Sosial iş, ölkədəki digər bir neçə peşə kimi, Azərbaycan müstəqilliyini qazandıqdan dərhal sonra inkişaf etməyə başladı. Sosial işin yeni bir peşə, bir elm sahəsi və ya bir ixtisas olaraq Azərbaycanda inkişafının ilkin mərhələsində olduğunu qeyd etmək olar.*

*Bu məqalə Azərbaycanda Sosial İşin yaranması və ölkənin social-müdafiə sisteminə inteqrasiyasının müxtəlif aspektlərinin araşdırılmasına həsr edilmişdir.*

**Açar sözlər:** sosial siyasət, sosial müdafiə sistemi, sosial iş.
**Keywords:** social policies, social protection system, social work.
**Ключевые слова:** социальная политика, систему социальной защиты, социальная работа.

**Giriş:** Sosial iş çətin həyat şəraitinə düşmüş insanlara köməklik etməyə istiqamətlənmiş insan cəmiyyətinin mövcudluğu qədər qədim bir fəaliyyətlərdəndir. Bütün dünyada artıq çoxdan məlumdur ki, sosial iş bütün insan qruplarına və fərdlərə, cəmiyyətin bütün təbəqələrinə lazımdır, sadəcə bəzilərinə bu potensial olaraq lazımdır, bəziləri üçün isə bu hal-hazırda aktualdır. Sosial işi bəzən "çətirə" bənzədirlər: adi vaxtda çətir bükülmüş vəziyyətdə qalır, amma ehtiyac duyulan an o, insanı təhdidedici, əlverişsiz təsirlərdən qoruyur**(8)**.

Sosial iş və ya sosial xidmət bir fəaliyyət növü və tədris fənni olaraq, insanlara onları əhatə edən mühitdə mümkün qədər daha yaxşı fəaliyyət göstərmələri üçün yardım etməyə istiqamətlənmişdir. "Sosial iş" anlayışı XIX əsrin sonlarından Qərbi Avropa və Amerikada geniş vüsət alsa da, o, müstəqil ixtisas kimi II Dünya müharibəsindən sonra tədris olunmağa başlanmışdır. Bu da dövlətlərin üzərinə daha çox sosial öhdəlik götürməsindən irəli gəlirdi. Sosial xidmət göstərən şəxslərə sosial işçilər deyilir. Sosial iş ilk dövrlər yetimlər və valideyn himayəsindən məhrum olmuş uşaqları, əlilləri, ahılları, problemli ailələri əhatə etsə də, sonralar bu xidmət növünün əhatə dairəsi daha da genişlənərək yaşından, cinsindən, etnik mənşəyindən, dinindən və s. asılı olmayaraq, dəstək və yardıma ehtiyacı olan hər kəsə aid oldu.

**Sosial işin Azərbaycan Respublikasının sosial müdafiə sisteminə daxil olması və inkişafı:** Azərbaycanda filantropiyanın tarixi XX əsrin əvvəllərinə gedib çıxır. O zamanlarda neft baronları və digər zəngin insanlar evsiz və kasıb insanları sığınacaqla təmin edən və sosial xidmətlərin təşkil olunmasında əsas rol oynayan Cəmiyyəti-Xeyriyyənin əsasını qoyurlar**(9, səh. 5)**. Bu sığınacaqlarda və uşaq cəmiyyətlərində xidmət edən insanlar

təlimlərini öz dövrünün ən zəngin neft baronlarından olan H.Z.Tağıyevin əsasını qoyduğu Qızlar Seminasiyasında alırdılar. Seminariya 1890-cı ildə qızlara hərtərəfli təhsil vermək məqsədilə yaradılmışdı. Bundan əlavə, seminariyanın bütün digər xərcləri H. Z. Tağıyev tərəfindən ödənilirdi. Seminariyanın ümumi tələbə heyətinin yarıdan çoxunu təşkil edən, maliyyə imkanı aşağı olan ailələrdən olan tələbələr təhsil haqqından azad edilir və məktəbə gəlmələri üçün təqaüdlə təmin olunurdular. Elə həmin seminariyada təlim keçmiş və orada sosial xidmətləri göstərənlər Azərbaycanın ilk sosial işçiləri hesab oluna bilərlər**(5, səh. 25)**.

Rusiya inqilabı və kommunizmin bərqərar olması sosial iş konsepsiyasını lazımsız və burjuaziya xas olan sənət kimi aradan çıxardı. Sovet İttifaqının təmsilçiləri 1928-ci ildə Parisdə keçirilən "Sosial iş üzrə I beynəlxalq konfrans"da iştirak edərkən, fərdi xeyriyyəçilik yanaşmasına və sosial iş sənətinə dinin təsirinə qarşı açıqca çıxış etdilər. 1930-ci ildə sosial iş hətta "burjuaziya məhsulu" kimi tənqid edildi. Sovet boyunduruğu sosial iş təhsili və onun tətbiqini on beş sosialist respublikanın hər birində məhdudlaşdırdı**(4, səh. 126)**. Sovet İttifaqının dağılması və Azərbaycan Respublikasının müstəqilliyini əldə etməsi ilə ölkədə sosial iş peşəsinin inkişafı üçün yeni mərhələ başlandı.

Azərbaycanda sosial xidmət sferası sovet sosial xidmət sistemi çərçivəsində və onun prinsipləri əsasında fəaliyyət göstərmişdir. Sovet İttifaqında sosial xidmət özünəməxsus qaydada həll edilirdi. Belə ki, sosial xidmətlər əsasən uşaqlara, o cümlədən valideyn himayəsindən məhrum olmuş uşaqlara yönəldilmişdi. Kənd, qəsəbə, rayon, şəhər, şəhərdə rayon xalq deputatları sovetlərinin qəyyumluq və himayə orqanları kimi fəaliyyət göstərməsi və onlara geniş səlahiyyətlərin verilməsi, hətta bu qurumların valideynlik hüquqlarının icrasına qədər nəzarət etmək səlahiyyətlərinin olması sovet dövründə uşaqlarla bağlı işin səmərəli təşkilini təsdiq edir. Avaraçılıq və dilənçilik bir hüquq pozuntusu kimi qiymətləndirildiyindən nəinki həmin şəxslərin sosial müdafiəsi təşkil edilirdi, əksinə, onlar cəzalandırılır və ya məcburi şəkildə əmək fəaliyyətinə cəlb edilirdilər. Müstəqillik əldə edildikdən sonra sosial xidmətin əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin artırılması istiqamətində müəyyən işlər həyata keçirildi. Azərbaycan Respublikasının Ailə Məcəlləsi (28.12. 2000), "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu (22.06.2001), "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu (24.05.2005) və s. qanunların qəbulu sosial xidmətin inkişafı və bu sahədə keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. 30 dekabr 2011-ci ildə qəbul edilən "Sosial xidmət haqqında" qanun ölkədə göstərilən dövlət sosial xidmətlərinə vahid bir yanaşmanı, onların forma və növlərini, şəxsin sosial xidmətə götürülməsi və ona sosial xidmət göstərilməsi üçün mühüm təsisat olan sosial işçinin statusunu, hüquq və vəzifələrini müəyyən edir**(7, səh. 308-309)**.

Müasir Azərbaycan şərtlərində sosial iş dövlətin sosial siyasətinə əsaslanır**(6, s. 96)**. Azərbaycan Respublikasının sosial iş (xidmət) sistemi dövlət və qeyri-dövlət sosial xidmət müəssisələrindən ibarətdir**(10, m. 21-23)**. Dövlət sosial xidmət sistemi müvafiq icra hakimiyyəti orqanları və dövlət sosial xidmət müəssisələrindən ibarətdir. Qeyri-dövlət sosial xidmət sistemi dövlət mülkiyyətinə aid olmayan mülkiyyət formaları əsasında fəaliyyət göstərən sosial xidmət təşkilatlarını, habelə sosial xidmət sahəsində özəl fəaliyyət göstərən şəxsləri birləşdirir. Qeyri-dövlət sosial xidmət sisteminin subyektləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun yaradılır və fəaliyyət göstərirlər. Ödənişsiz şərtlərlə xidmət göstərən sosial xidmət müəssisələri, eləcə də qeyri dövlət sosial xidmət müəssisələri üçün qanunvericilikdə müəyyən olunmuş qaydada güzəştlər müəyyən edilə bilər.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən sosial iş dövlət büdcəsinin vəsaiti, ödənişli əsaslarla sosial iş göstərilməsindən əldə olunan vəsaitlər, hüquqi və fiziki şəxslərin ianələri, qrantlar, eləcə də qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir. Sosial iş müəssisələrində və evlərdə sosial iş ödənişsiz, qismən ödənişli və

tam ödənişli əsaslarla göstərilir. Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət sosial iş müəssisələrində və evlərdə sosial iş zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir.

Ödənişsiz sosial iş (xidmət) əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin himayəsindən məhrum olan AR vətəndaşlarına göstərilir. Ödənişsiz sosial xidmətlərdən əlavə göstərilən sosial xidmətlərin haqqı onlar tərəfindən ödənilir. Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi qaydası və sosial xidmət haqqının məbləği Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir. Ödənişli sosial xidmətlər çətin həyat şəraitində olan şəxs (ailə) ilə sosial xidmət göstərən subyektlər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Bələdiyyə sosial xidmət müəssisələri gəlir əldə etmək məqsədi güdmür və sosial xidmət haqqı sosial xidmət göstərilməsi ilə bağlı xərclərin, əməkdaşların əmək haqlarının və digər cari xərclərin həcminə uyğun olaraq bələdiyyə tərəfindən müəyyənləşdirilir. Özəl sosial xidmət müəssisələrində sosial xidmət haqqı müəssisə ilə sosial xidmətə götürülmüş şəxs arasında bağlanmış müqavilə ilə müəyyən edilir.

Sosial xidmət sahəsində dövlət sifarişləri fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hükumət təşkilatlarına verilə bilər.

Azərbaycanda sosial işin (xidmətin) subyektləri dedikdə sosial iş göstərənlər və sosial iş və xidmət göstərilənlər nəzərdə tutulur. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sosial xidmət sahəsində fəaliyyət göstərən subyetklərə aşağıdakılar aiddir: sosial xidmət sahəsində fəaliyyət göstərən dövlət hakimiyyəti orqanları, bələdiyyələr, sosial xidmət müəssisələri, sosial işçilər, sosial xidmətçilər, eləcə də öz vəsaitləri və ya cəlb edilmiş vəsaitlər hesabına sosial xidmət göstərən qeyri-hökumət təşkilatları, könüllülər və s. qeyd olunanlar ölkədə sosial xidmət sisteminin vahid şəbəkəsini təşkil edir **(3, s. 56-57)**.

**Nəticə:** Sovet İttifaqının dağılması müstəqil Azərbaycan üçün bir çox problemlər gətirdi. Ermənistanla müharibə yüzlərlə qaçqın və məcburi köçkünün peyda olmasına səbəb oldu və ölkənin keçid prosesini olduqca qəlizləşdirdi. Sovet sisteminin tərkib hissəsi olaraq, dövlət sosial rifaha nəzarət edir, eyni zamanda yalnız hər hansı sosial və tibbi böhranın qarşını ala biləcək qədər müəyyən qisim yardım və nağd ödənişlər təmin edirdi. Ailə xaricində dövlət insanların sosial problemlərinin həllinin yeganə təminatçısı idi. Digər keçmiş Sovet ölkələri kimi Azərbaycan da sosial işin başlanmasını dəstəkləyəcək insanlara xidmət infrastrukturunda nəzərəçarpan çatışmazlıqlardan əziyyət çəkmişdir. Daha öncə heç bir sosial iş tarixi olmadığından Azərbaycan əhalisinin əksəriyyəti sosial işin nə olduğu və bu yeni təqdim edilmiş sənətin cəmiyyətə necə töhfə verə biləcəyi barədə məlumatsız idilər. Buna baxmayaraq, sosial işçi sənəti müxtəlif beynəlxalq təşkilatların nəzdində formalaşmışdır. Hər bir beynəlxalq təşkilat hədəf risk qrupları ilə işin aparılması üçün sosial işin müxtəlif aspektləri üzrə öz yerli işçilərini təlimləndirirdilər. Bununla bahəm, onların problemlərin köklü həllinə imkan verəcək professional göstəriciləri yox idi.

Hazırda sosial iş ölkəmizdə özünün institutlaşma mərhələsini yaşayır. Bu sahənin inkişafı bir çox obyektiv və subyektiv problemlərlə qarşılaşmasına baxmayaraq, onun elmi-nəzəri əsaslarının ölkəmizdə təsis edilməsi gündəmdə duran ən vacib məsələlərdən biridir. Əgər nəzərə alsaq ki, sosial iş insan fəaliyyətinin elə bir sahəsidir ki, orada nəzəriyyə daima praktikanın davamı kimi çıxış edir, ölkəmizdə kifayət qədər praktikanın olduğu da danılmaz həqiqətdir.

Ölkədə sosial iş peşəsinin institutlaşması prosesinə beynəlxals humanitar təşkilatlar (UNİCEF, Azərbaycana Birgə Yardım Fondu və s.) böyük dəstək vermiş, Sosial xidmət haqqında qanun layihəsinin hazırlanması ilə bağlı Azərbaycan Milli Məclisinin Sosial Siyasət Komitəsi ilə yaxından çalışmışdır. Nəticədə qanunvericilik sosial iş sənətini tanıyır və Azərbaycanda sosial işçilərin hüquq və məsuliyyətlərini müəyyən edir. Parlamentdə qəbul edilən "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu 30 dekabr 2011-ci il

tarixindən qüvvədədir və qanun ölkənin sosial iş sistemini ve sosial iş peşəsinin statusunu müəyyən edir.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, 28.12.2000.
2. "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 22.06.2001.
3. Əhmədov Y. Sosial işin nəzəriyyəsi və təcrübəsi. Bakı, 2013.
4. Healy L. M. International Social Work: Professional Action in an Interdependent World. New York, Oxford University Press. 2001.
5. Hüseynli A. Postsovet məkanında sosial iş modeli. Context jurnalı, № 3, 2011.
6.Mələkli G. Sosial problemlərin öyrənilməsi və nəzəri metodoloji Aspektləri. Bakı Universitetinin Xəbərləri jurnalı, №4, 2012.
7. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı, 2012.
8. Sosial işçi kimdir? 2 iyul 2013, http://www.bizimyol.info/news/12635.html
9. Sosial işin əsasları. (müntəxəbat). I cild, Bakı, 2006.
10. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu. 30 dekabr 2011. Maddə 21-23.

## ПРОЦЕСС ИНЕГРАЦИИ СОЦИАЛЬНОЙ РАБОТЫ В СИСТЕМУ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Мамедов Асим Щафаят оглы, Багирова Айсель Рауф кызы***

***Резюме***

Со времени формирования социальная работа служила интересам бедных и обездоленных. В современности круг обслуживания этой профессии намного расширился, превратилась в область профессии который служит всем людям которые оказались в нужде и в трудности независимо от социального уровня и доходов.

Социальная работа как профессия образовалась в XIX веке. В первый раз летом 1898 года открылся курс по социальной работе в университете Колумбия. В Англии социальная работа стала формироваться в одно время с Америкой. Первые социальные работниками в Англии стали социальные работники в области медицины.

Формирование социальной работы в Азербайджане относится к началу XX века и отражает лучшие гуманистические ценности нашего народа. Сначала эта работа осуществлялась в форме благотворительности. В следующих этапах начал обретать организованный характер.

После завоевания самостоятельности в Азербайджане как и все новые отрасли профессии, социальная работа начала быстро развиваться в нашей стране. Сегодня этот вид работы находится в начальном эрапе своего развития.

Данная статья посвящается созданию в Азербайджане социальной работы и ее интеграции систему социальной защиты нашей страны.

## THE PROCESS OF INTEGRATION OF SOCIAL WORK INTO THE SOCIAL PROTECTION SYSTEM OF AZERBAIJAN REPUBLIC

***Mammadov Asim Shafayat, Bagirova Aysel Rauf***

***Summary***

Social Work intended to aid the poor and the oppressed in its early stages of formation.Nowadays, Social Work and social services have significantly been expanded and Social Work has become a profession that concerns itself with all individuals who are aggravated by poverty and poor living conditions in an effort to assist all those in need irrespective of their class and income levels.

Social Work emerged as a profession in the 19th century. The first social work class was offered in the summer of 1898 at Columbia University. Professional Social Work originated

in the 19th century England, almost at the same time as in the USA. The first Social Workers in England were health professionals who worked in the hospitals of the country.

Social Work was classified in Azerbaijan as an independent profession in the beginnings of the 20th century and its emergence was inspired by humanist values. In the beginning, that kind of social support was put into life in the form of various charity activities, but it gradually gained an organisational character and form.

Social Work, as a couple of other professions in the country, started to develop soon after Azerbaijan gained its independence. It can be said that Social Work, as a new profession, a branch of science, or a speciality, is in the preliminary stages of its development in Azerbaijan.

This paper is dedicated to the exploration of the related issues,like the emergence of Social Work in Azerbaijan and various aspects of its integration into the social protection system of the country.

***Rəyçi: f.ü.f.d. Balakişiyev Üzeyir Qara***
***Sosial fənlər kafedrasının 11 fevral 2021-ci il tarixli iclasın 06 saylı protokolu***
***Daxil olduğu tarix 15fevral 2021-ci il***

**UOT:31.**

# MÜASİR DÖVRDƏ GƏNCLƏRİN SİYASİ SOSİALLAŞMASININ ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

***Dosent Məmmədov Asim Şəfayət oğlu, Cəfərova Türkanə Əliyəddin qızı***
***Gəncə Dövlət Universiteti***
***asim_gdu@yahoo.com, t.jafarova@gmail.com***

**Anotasiya:** *Hər bir fərd dünyaya gəldiyi andan etibarən onun yaşadığı cəmiyyətə inteqrasiya etməsi prosesi də başlayır. Fərdin cəmiyyətə inteqrasiyası, onun bioloji inkişafına paralel olaraq, yeni sosial statuslar əldə edərək durmadan davam edir. Fərdin cəmiyyətə inteqrasiyasının bir hissəsini onun siyasi proseslərin iştirakçısına çevrilməsini təmin edən siyasi sosiallaşması təşkil edir.*

*Belə bir dövrdə fərdin cəmiyyətə inteqrasiya prosesini özündə əks etdirən sosiallaşma, eyni zamanda siyasi sosiallaşma, qeyri-ənənəvi təsir amillərinin hegemonyasından çıxaraq, yeni təsirlərə məruz qalır. Bu da nəticədə gənc nəslin siyasi oriyentasiyasına öz təsirlərini göstərir. Çox vaxt isə bu təsir neqativ çalarlarla, siyasi sistemin marjinal olaraq qəbul etdiyi ideya və baxışlarla özünü büruzə verir ki, bu da siyasi deviasiyanın bəzi hallarda hüquqi kənara çıxmalar ilə müşahidə olunmasına gətirib çıxarır.*

*Bu məqalədə, siyasi sosiallaşma prosesi, bu prosesin mərhələləri və siyasi sosillaşmada yer alan sosial institutlar ələ alınmış, daha sonra isə müasir dövrdə gənclərin siyasi sosiallaşma prosesinə təsir edən faktorlar ətraflı tədqiq edilmişdir. Bu məqsədlə mövzuya dair ədəbiyyat incələnmiş, sonra isə gənclərin siyasi sosiallaşmasına təsir edən amillərin effektivliyi təsbit edilməyə çalışılmışdır.*

**Açar sözlər:** sosiallaşma, siyasi sosiallaşma, siyasi iştirak, gənclik, ideoloji tərbiyə
**Key words:** socialization, political socialization, political participation, youth,
**Ключевые слова:** социализация, политическая социализация, политическое участие, идеологическое воспитание

**Giriş:** Cəmiyyət bu gün öz inkişafının qloballaşma ilə birgə müşaiyət ideological education olunan post-sənaye mərhələsini yaşayır. Bu mərhələ, hər şeydən əvvəl elm və texnologiyanın inkişafı, cəmiyyətin bütün sahələrini əhatə edən qlobal inteqrasiya və yüksək sürətə malik kütləvi informasiya vasitələri və rəqəmsal texnologiyaların insan həyatının əsas istiqamətverici qüvvəsinə çevrilməsi ilə müşaiyət olunur.

Belə bir dövrdə fərdin cəmiyyətə inteqrasiya prosesini özündə əks etdirən sosiallaşma, eyni zamanda onun bir hissəsi olan siyasi sosiallaşma, qeyri-ənənəvi təsir amillərinin hegemonyasından çıxaraq, yeni təsirlərə məruz qalır. Bu da nəticədə gənc nəslin siyasi oriyentasiyasına öz təsirlərini göstərir. Çox vaxt isə bu təsir neqativ çalarlarla, siyasi sistemin marjinal olaraq qəbul etdiyi ideya və baxışlarla özünü büruzə verir ki, bu da siyasi deviasiyanın bəzi hallarda hüquqi kənara çıxmalar ilə müşahidə olunmasına gətirib çıxarır.

Belə halların qarşısının alınması üçün, gənclərin siyasi sosiallaşması prosesinə təsir edən ənənəvi sosial institutların üzərinə daha çox məsuliyyət düşür. Ailə, məktəb, ali təhsil ocaqları və siyasi institutlar yeniyetmə və gənclərin siyasi cəhətdən düzgün yetişmələri, onların qeyri-ənənəvi və marjinal siyasi təsirlərin altına düşməsinin qarşısının alınması üçün bu sahədə öz üzərinə düşən vəzifələri dərk etməli və gənclərin düzgün siyasi istiqamət götürmələri üçün onlarla daha fəal iş aparmalıdır.

Bu gün cəmiyyətimizdə ictimai həyatın və siyasi proseslərin ən aktiv iştirakçıları gənclər və onların yaratmış olduğu sosial qruplardır. Bu gün Azərbaycanda əksər insanların siyasi sosiallaşma prosesinə qoşulması məhz yeniyetməlik və gənclik yaşlarına təsadüf edir. Bu reallıq dövlətin gənclərin siyasi sosiallaşması prosesində maraqlı olmasını tələb edir. Azərbaycan dövlətinin gənclər siyasəti gənc nəslin kompleks inkişafını özündə birləşdirən bir siyasətdir. Bu siyasət ölkə gəncliyini hərtərəfli inkişafına əsaslanmışdır. Bu baxımdan gənclərin siyasi proseslərə cəlb olunması və onların siyasi institutlarda təmsil olunması mühüm əhəmiyyət kəsb edir.

**Şəxsiyyətin sosiallaşması:** Şəxsiyyətin sosiallaşması fərdin cəmiyyətə, müxtəlif tipli sosial birliklərə inteqrasiyası prosesidir.Hər bir cəmiyyət müəyyən mənada özünə uyğun gələn şəxsiyyət tipinin formalaşmasına ehtiyac duyur. Elə buna görə də, sosial xarakterin təşəkkülü və inkişafı məqsədilə müəyyən tələblər irəli sürür.Şəxsiyyətin sosial tipi insanların həyat fəaliyyətinin mürəkkəb tarixi-mədəni və sosial iqtisadi şəraitinin bir-birinə nüfuz etməsinin məhsuludur.

Şəxsiyyət haqqında nəzəriyyələrdə onun sosiallaşması özünəməxsus yer tutur. Bu məsələ ilə bağlı müxtəlif nəzəriyyələrdə fərqli məqamlar öz əksini tapsa da, sosiallaşmanın mahiyyətinə dair əsas mülahizələr isə öz yekdilliyi ilə diqqət çəkir. Belə ki, şəxsiyyətin sosiallaşması dedikdə, fərdin dünyaya göz açdığı gündən cəmiyyətə, müxtəlif tipli sosial birliklərə inteqrasiyası prosesi nəzərdə tutulur **(Vahidov, Ağayev, 2008: 27)**. Sosiallaşma, fərdin yaşadığı cəmiyyətin mədəniyyətinin elementlərini, sosial norma və sərvətləri mənimsəməsi prosesidir və bu proses bütün həyat mərhələlərində davam edir, əldə edilən təcrübə bütün həyat mərhələlərində istifadə edilir. Maykl Rozkin və d. "Siyasət elminə giriş" əsərində bu fikri dəstəkləyərək yazırlar ki, "sosiallaşma prosesində uşaqlar çox vaxt bir ömür boyu sürən davranışlar, danışıq və inancları mənimsəyirlər. Baxmayaraq ki, bəziləri formal şəkildə öyrədilir, əksəriyyəti başqalarını yamsılamaqla (təqlid yolu ilə) götürür. Eyni yolla siyasi sosiallaşma siyasi dəyərləri və spesifik davranışları öyrədir. Bayrağa sədaqət andı içmək, milli himni oxumaq, prezidentdən polis zabitlərinə qədər hakimiyyət nümayəndələrinə tabe olmağı öyrənmək ailələrdən, dostlardan, müəllimlərdən və kütləvi informasiya vasitələrindən ötürülür" (**Rozkin və d., 2019: 130-131**).

Burada diqqət çəkən məqamlardan biri, sosiallaşmanın ikili xarakter daşımasıdır. Bir tərəfdən cəmiyyətin yeni bir üzvü olan fərdin şəxsiyyətə çevrilməsi prosesi kimi sosiallaşma baş verir, digər tərəfdən isə cəmiyyət, özünün varlığını və müvazinətini qorumaq naminə yeni üzvünü müxtəlif sosial institutlar vasitəsilə sosiallaşdırma prosesinə cəlb edir. Bunun nəticəsində də mədəni norma, dəyərlər, adət-ənənələrkimi sərvətlərin əsasında şəxsiyyətin sosial cəhətdən əhəmiyyətli xüsusiyyətləri formalaşır.

Şəxsiyyətin sosiallaşmasında bir sıra sosial institutlar eyni anda və ya bir-birini əvəzləyərək yer alırlar. Siyasi sosiallaşma prosesində də buna oxşar proses gedir. Uşaqların ilk qarşılaşdığı sosial qrup və sosial institut olan ailə, adətən, bütün digər faktorlardan öndə

gəlir. Təsadüfi deyil ki, ailə insanın həyatında ilk sosiallaşdırıcı kimi qəbul edilir. İlkin sosiallaşma məkanı kimi ailə fərdin həyatındahəlledici məqam olub, onun şəxsiyyətini, sosial həyatda sonrakı inkişafını bir çox cəhətdən müəyyən edir **(Vahidov, Ağayev, 2008: 27)**. Ümumiyyətlə, hökumət və məktəblər tərəfindən göstərilən açıq sosiallaşma cəhdləri, adətən, onların dəyərləri ailə oriyentasiyası ilə ziddiyyət təşkil edəndə uğursuzluğa düçar olur. Məsələn, Polşa kimi dinin təsirinin yüksək olduğu keçmiş sovet cəmiyyətlərində, kommunist rejimlər uşağa sosialist dəyərləri aşılamağa cəhd edirdi, ancaq ailə uşağa bu mesajları nəzərə almamağı öyrədirdi. ABŞ kimi demokratik ölkələrdə isə ailə dəyərləri ilə hökumətin dəyərləri bir-biri ilə uyğunlaşdığına, çox vaxt üst-üstə düşdüyünə görə, sosiallaşmanın bu iki növü bir-birini gücləndirir **(Rozkin və d., 2019: 131)**.

Yuxarıda da qeyd edildiyi kimi, şəxsiyyətin formalaşması və sosiallaşması çox mürəkkəb, uzun müddətli və bir sıra sosial institutların və qrupların mürəkkəb, təsirinin miqdarı tam aydın olmayan fəalliyyətinin nəticəsi olaraq baş verir. Ailə belə sosial qruplardan və sosial institutlardan sadəcə biridir. Ailə ilə yanaşı, şəxsiyyətin sosiallaşmasında təhsil (bağça, məktəb, universitet və s.) institutu, həmyaşıd qrupları, kütləvi informasiya vasitələri, din institutu kimi faktorlar mühüm rol oynayır **(Həsənov, 2010: 67)**. Bu institut və sosial qrupların hər biri şəxsiyyətin sosiallaşmasında qalıcı izlər buraxır və bu izlər onun bütün həyatı boyu özünü göstərir. Məhz bu təsirlər, sosiallaşan şəxsiyyətin aid olduğu şəxsiyyət tipini də müəyyən edir. Şəxsiyyətin ənənəvi, realist, idealist, gedonist materialist, früstrir tiplərinin formalaşması, sosiallaşdırıcı faktorların təsir kombinasiyasından və fərqli təsirlərin effektivliyindən asılıdır. Şəxsiyyətin bazis tipi ictimai inkişafın müasir mərhələsinin tələblərinə daha yaxşı cavab verir **(Əfəndiyev, 2009: 134-135)**.

Şəxsiyyət sosial münasibətlərin subyekti olmaq etibarilə hər şeydən əvvəl, muxtar xarakteri, cəmiyyətdən müəyyən dərəcədə asılı olmaması, özünü cəmiyyətə qarşı qoymaq qabiliyyəti ilə səciyyələnir. Şəxsiyyətin qeyri-asılılığı öz üzərində hökmranlıq qabiliyyəti ilə bağlıdır. Bu isə öz növbəsində şəxsiyyətdə mənlik şüurunun başqa sözlə, sadəcə olaraq şüurun, təfəkkürün və iradənin deyil, həm də özünütəhlilin, özünüqiymətləndirmənin, özünə nəzarətin mövcudluğunu nəzərdə tutur.

Şəxsiyyətin sosiallaşmasında iki mərhələni ayırd etmək olar, birinci mərhələ sosial adaptasiya mərhələsidir **(İsmayılov, Axundov, Yusifov, 2016: 198)**. Adından da məlum olduğu kimi, bu mərhələdə, fərdin sosial-iqtisadi şəraitə, sosial-rollara, cəmiyyətin həyat fəaliyyətinin müxtəlif səviyyələrində mövcud olan norma və dəyərlərinə, sosial birliklərə və sosial təşkilatlara, sosial təsisatlara uyğunlaşması prosesi baş verir. Şəxsiyyətin sosiallaşmasının ikinci mərhələsi isə interiorizasiya adlanır. İnteriorizasiya sosial normaların və sərvətlərin insanın daxili aləminə qoşulması prosesidir.Sadəcə olaraq biliklərə yiyələnmək azdır, hər şeydən əvvəl bunlar inama çevrilməlidir. İnama çevrilən biliklər isə şəxsiyyətin fəaliyyətində təzahür edir.

Nəhayət, şəxsiyyətin sosiallaşması əmək, ictimai, siyasi idraki fəaliyyətlə bağlıdır.

**Siyasi sosiallaşma və şəxsiyyətin siyasətin iştirakçısına çevrilməsi:** "Siyasi sosiallaşma" termin kimi 1959-cu ildən siyasi elmə Amerika tədqiqatçısı Q.Hayman tərəfindən daxil edilmişdir. 1969-cu ildə E.Danson və K.Rriutt "Siyasi sosiallaşma" adlı kitab nəşr etdirmişlərlər **(Siyasi sosiologiyanın müasir problemlərinə dair, 2014:132)**.

Şəxsiyyətin sosiallaşmasının çox mühüm komponenti siyasi sosiallaşmadır. Cəmiyyətin siyasi strukturunun təkmilləşməsinə təsir göstərən amillər sistemində siyasi sosiallaşma özünəməxsus yer tutur. Bir tərif vermək lazım gəlsə, siyasi sosiallaşmaya belə bir tərif vermək olar: şəxsiyyətin siyasi dəyərləri, normaları, siyasi davranış qaydalarını mənimsəməsi və onları öz siyasi fəaliyyətində reallaşdırması hadisəsi siyasi sosiallaşma adlanır **(Şirliyev, Əhmədov, 1997: 322)**.

Siyasi sosiallaşma ikitərəfli proses kimi diqqəti cəlb edir, belə ki, bu zaman cəmiyyət insanı vətəndaş kimi yetişdirirsə, digər tərəfdən sosiallaşan fərd mövcud siyasi struktura və ictimai münasibətlərə yaradıcı təsir göstərməklə cəmiyyətin özünü yeniləşdirir.

Tədqiq edilən bəzi araşdırmalarda hər nə qədər siyasi sosiallaşma, şəxsiyyətin sosiallaşmasından sonra başlayan, ondan ayrı bir proses olaraq göstərilir ki, əslində bu düzgün yanaşma deyil **(Abdullayeva, 2013: 9)**. Çünki, hər nə qədər sosiallaşma prosesi, uşağın dünyaya gəldiyi ilk günlərdən başlasa da, siyasi sosiallaşma da, sosiallaşmada olduğu kimi uşaqlıq dövründə başlayan, uşağın müxtəlif siyasi atributlar, məsələn, dövlətin adı, paytaxtı, ölkə rəhbəri, dövlət rəmzləri və s. ilə tanış olması prosesidir. Yenə bəzi mənbələrdə fərdin siyasi sosiallaşması, onun siyasi fəal vətəndaş olub-olmamasından, bunu istəyib-istəməməsindən asılı olduğu qeyd olunur **(Abdullayeva, 2013: 9)**. Bu da öz növbəsində siyasi sosiallaşma prosesinə düzgün yanaşma olaraq qəbul edilə bilməz. Fərdin siyasi sosiallaşması onun siyasi fəal vətəndaş olub-olmamasından, həmçinin bunu istəyib istəməməsindən asılı olmayaraq baş verən bir prosesdir. Fərdin siyasi fəal vətəndaş olub-olmaması, onun gələcəkdə siyasətin subyekti və obyekti kimi siyasi proseslərdə fəal iştirak etməsi onun siyasi sosiallaşmasının səviyyəsindən asılı olan bir məqamdır.

Uşaqların siyasi davranışlarının, düşüncələrinin formalaşmasına onun valideynləri həmişə əsas təsir göstərir. Əksər insanlar siyasəti öz valideynlərinin gördüyü kimi görür və elə də onların siyasi cizgisini davam etdirir. Fərqlilik isə sonrakı dövrlərdə gəncin öz siyasi biliklərini daha elmi mənbələrin hesabına (elmi-ideoloji əsərlər, siyasi proqramlar və s.) genişləndirməsi və siyasi prosesləri daha fərqli aspektlərdən qiymətləndirməyi bacarması ilə ortaya çıxır. Əsasən, ailə fərdin psixoloji təməlini formalaşdırır, o isə öz növbəsində fərdin siyasi baxışlarını müəyyənləşdirir. Ailə partiya tərəfkeşliyi və hökumətə etimad və ya siyasi şübhə kimi normalar, dəyərlər, baxışlar, inanclar və münasibətləri uşaqlara ötürür. İlk illər, xüsusilə 3 yaşından 13 yaşına qədər ən güclü təsirə malikdir **(İsmayılov və d., 2016: 210-211)**. Uşaqlar valideynlərin dəyərlərini fərdinə varmadan və tənqidi yanaşmadan qəbul edə və onları ömürləri boyu saxlaya bilərlər. İnsanlar çox zaman böyüdükdən sonra uşaq vaxtı topladıqlarını dünyaya geri qaytarırlar. Bir tədqiqat göstərir ki, avtoritar şəxsiyyətə malik olan insanlarla uşaqkən kobud davranılıb. Almond və Verba belə bir nəticəyə gəliblər ki, uşaqkən ailəsində sözü eşidilənlər böyüdükdən sonra daha böyük siyasi kəsərlilik hissinə malik olurlar **(Rozkin, 2019: 132)**.

Aparılan çoxsaylı sosioloji və siyasi tədqiqatlar belə qənaətə gəlməyə əsas verir ki, insanın siyasi sosiallaşması sistemində ailədən sonra, təhsil müəssisələri, əmək kollektivləri və kütləvi informasiya vasitələri xüsusi yer tutur **(İsmayılov və d. 2016: 211)**. Kütləvi informasiya vasitələrinin təsiri son dövrlərdə artmaqdadır. Çoxları bu təsirin mənfi olmasından ehtiyat edirlər.

Şəxsiyyətin siyasi sosiallaşmasında hökumət müəyyən qədər rol oynayır. Həmişə dəstək və sədaqət qazanmaq üçün planlaşdırılmış hökumətin bir çox fəaliyyətləri özünü ictimaiyyətə izah etmək və ya nümayiş etdirmək niyyəti daşıyır. Bununla belə, hökumətin siyasi baxışları idarə etmək gücü məhduddur, çünki mesajlar və təcrübələr fərdlərə bunlara öz dəyişiklik və düzəlişlərini əlavə edən qohum və həmyaşıdları ilə söhbətlər vasitəsilə çatır. Yadlaşmış qruplar öz uşaqlarını hökuməti bəyənməyərək və onun mesajlarını rədd edəcək şəkildə sosiallaşdıra bilər **(Rozkin, 2019: 134)**.

**Müasir dövrdə gənclərin siyasi sosiallaşmasının özünəməxsus xüsusiyyətləri:** Siyasi sosiallaşma prosesi yuxarıda da qeyd edildiyi kimi fərdin uşaqlıq dövründən başlayaraq davam edən və onun cəmiyyətin ictimai-siyasi həyatının nə dərəcə fəal üzvünə çevrilməsində mühüm rol oynayan bir prosesdir. Bu prosesin mühüm hissəsini fərdin yeniyetməlik və gənclik dövrü təşkil edir. Məhz həmin yaşlarda fərdin siyasi sosiallaşma prosesinin düzgün oriyentasiya götürməsi, onun bir vətəndaş kimi siyasi proseslərə marağının miqyasını müəyyənləşdirir. Bu proses nəticəsində şəxsiyyətin siyasi "kimliyi"ndə üç ünsür müşahidə

edilir ki, bu üç ünsür sayəsində o, siyasi mühitdə fəaliyyət qabiliyyətini müəyyənləşdirir **(Şirəliyev, Əhmədov, 1997: 324)**. Birincisi, siyasi proseslər, siyasi liderlərin fəaliyyətləri haqqında zəruri biliklər, ikincisi, siyasi sistem və onun ayrı-ayrı komponentlərinin inkişaf istiqamətlərini göstərən və ümumi siyasi məqsəd kimi qəbul edilən siyasi dəyərlər və sonuncusu, fərdin siyasi obyektlərə münasibətdə seçtiyi həyat mövqeyi.

Burada mühüm məqam fərdin siyasi sosiallaşma zamanı mənimsədiyi siyasi keyfiyyətlərin ümumi kombinasiyası və istiqaməti siyasi sistemin ahəngdar fəaliyyətinin vacib şərti kimi səciyyələnir. Bu baxımdan şəxsiyyətin siyasi sosiallaşması prosesinin düzgün istiqamət götürməsi, başda dövlət olmaqla, siyasi sistemin bütün ünsürləri üçün maraqlı məqamlardan biridir. Çünki cəmiyyətin ən dinamik hissəsini təşkil edən gənc nəslin siyasi sosiallaşmasında rol alan faktorların təsiri, siyasi sistemin müvazinətinə və onun inkişafına birbaşa təsir göstərir, hətta bu təsir bəzən yıxıcı xarakter də daşıya bilir. Gənc vətəndaşın siyasi həyata qoşulması zamanı "siyasi apatiya" qədər, "siyasi anarxiya"ya meyl də yolverilməzdir ki, birincidə şəxsiyyətin siyasi etinasızlığı müşahidə olunursa, ikincidə isə mövcud siyasi sistemin varlığına qarşı bir təhlükə halı mövzu bəhsdir. Hər iki halda öz "siyasi maraq"ı ilə siyasi proseslərə qoşulan gənclərdən fərqli olaraq, siyasi prosesdə digər şəxslərin təsiri altında iştirak baş verir.

Gənclərin siyasi sosiallaşmasında yer alan müxtəlif faktorların təsiri və bu təsirlərin kombinasiyası nəticəsində müxtəlif siyasi tiplər formalaşır. Bu tipləri xalis şəkildə aşağıdakı beş qrupda cəmləşdirmək olar: harmonik (ahəngdar), hegemon, plyuralist, münaqişəli, və konyuktur. Burada siyasi sistemin ən çox görmək istədiyi tip harmonik tipdir ki, hakimiyyət ilə ən münaqişəsiz münasibətlər bu tip qurur. Ən azruolunmaz siyasi sosiallaşma tipləri isə münaqişəli və hegemon tiplərdir. Belə tiplərin çoxalması siyasi sistemin sabitliyinə və inkişafına mənfi təsir göstərə bilər. Ona görə də, belə tiplərin sayının artmasında maraqlı olan qüvvələrin təsirlərinin qarşısını almaq üçün yeniyetmələrin və gənclərin ənənəvi sosiallaşdırma vasitələrinə maraq göstərməsini təmin eləmək lazımdır (**Siyasi sosiologiyanın müasir problemlərinə dair, 2014: 141-142**).

Gənc nəslin siyasi sosiallaşmasının əsas aspektlərindən birini ideoloji tərbiyə və ya siyasi ideologiyanın seçilməsi prosesi təşkil edir. Azərbaycanda bu gün gənclərin siyasi iştirakda müəyyən ideologiyanı mənimsəməsi və onun qatı tərəfdarı kimi hərəkət eməsi çox nadir rastlanan bir hal olsa da, dünyanın bir sıra ölkələrində bu hal üstünlük təşkil edir ki, çox vaxt da müxtəlif ideoloji görüşə malik gənclər arasında şiddətə əsaslanan qarşıdurmaların meydana gəlməsi ilə özünün neqativ xüsusiyyətini də ortaya qoyur. Belə halların ölkəmizdə gələcəkdə müşahidə edilməməsi gənclərin düzgün siyasi sosiallaşması və ideoloji tərbiyəsi ilə doğrudan bağlıdır.

Müasir dünya birliyi müxtəlif forma və məzmunlu qlobal çağırışlar və təhlükələrlə üzləşir. Bəşər təcrübəsində siyasi sabitliyin qorunması və möhkəmlənməsi, daxili münaqişələrin qarşısının alınması mexanizmləri kifayət qədər işlənib hazırlnmış və müəyyən dərəcədə uğurla tətbiq edilmişdir. Buna baxmayaraq, sabitliyin pozulmasına səbəb olan amillər – milli təhlükəsizliyə daxili və xarici təhdidlər müasir siyasi sistemlərə daim təsir göstərməkdədir. Təhlükəli qlobal çağırışlara və təhdidlərə yalnız ideoloji baxımdan möhkəm cəmiyyət sinə gərə bilər. Yalnız mənəvi və ideoloji baxımdan güclü şəxsiyyət ekstremizm və terrorizm kimi ideoloji cərəyanların təsiri altına düşməyə bilər ki, bu da gənc nəslin ideoloji tərbiyəsi diqqət mərkəzində olan cəmiyyətdə mümkündür **(Səmədov, 2019)**.

Məqsədyönlü ideoloji tərbiyə gənclərdə dünyagörüşünün və mənəvi dəyərlərin aşılanması, onlara öz xalqının tarixi irsi və yaradıcı əməyinə düzgün münasibətin formalaşması ilə bağlı fəaliyyətin əhəmiyyətini və səmərəliliyini yüksəldir.

**Nəticə:** Siyasi sosiallaşma müasir dövrdə siyasi sistemin stabilliyi və inkişafına təsir göstərən mühüm faktorlardan biridir. Siyasi sosiallaşma nəticəsində siyasi mühit durmadan yenilənir və inkişaf edir. Ancaq prosesin düzgün həyata keçməməsi və neqativ faktorların

gənc nəslin siyasi sosiallaşma prosesindəki rolunun artması, siyasi sistemin stabilliy üçün böyük təhlükə törədə bilər. Çünki müasir dövrdə ənənəvi sosiallaşma institutlarının bu istiqamətdəki fəaliyyəti davam etsə də, qeyri-ənənəvi yeni təsiredici faktorların rolu artmışdır. İnternet üzərindən yayımlanan informasiya axınında neqativ hallarla, müharibə, zorakılıq, təcavüz, müxtəlif növ cinayətlərlə bağlı məlumatların geniş yer alması, sosial şəbəkələrdə qeyri-etik, əxlaqdan uzaq görüntülərə, söz və ifadələrə yol verilməsi, dünya televiziya efirinin xəbərlər blokunda terror hadisələri, təbii fəlakətlər, texnogen qəzalar barədə məlumatların üstünlük təşkil etməsi, şou proqramlarında lokal məişət problemlərinin geniş tamaşaçı auditoriyasında qabardılması, bazar anlayışlarının cəmiyyətin təkcə iqtisadi həyatına deyil, həm də ictmai, sosial və mədəni həyatına geniş şəkildə siyarət etməsi gənc nəslin şüurunda daim saysız-hesabsız risklərlə, təhlükələrlə üzləşəcəkləri barədə yanlış təsəvvür yaratmaqla onun sosiallaşması prosesinə mənfi təsir göstərir.

Ona görə də, yeniyetmə və gənclərdə xalqımızın tarixinə və mədəniyyətinə düzgün münasibət formalaşmaq, ölkənin azadlığı və dövlətin müstəqilliyi, humanizm və həmrəylik, tolerantlıq və milli barışıq, ailə institutu və konfessional ənənələrə hörmət, vətənpərvərlik kimi ümumi dəyərlər ətrafında birləşmək üçün dövlət səylərini daha da artırmalıdır. Çünki gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, dövlətə və xalqa sadiq vətəndaş kimi formalaşmasına xidmət göstərir. Belə gənclərdən mütəşəkkil ordumuz sayəsində İkinci Qarabağ müharibəsində torpaqlarımız işğaldan azad olundu və ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

## *Ədəbiyyat*

1. Abdullayeva G. Siyasi sosiallaşma və bu prosesə təsir edən amillər. – “Xalq” qəzeti, 2013, 15 dekabr.
2. Əfəndiyev M. Sosiologiya. Bakı: “Bakı Universiteti”, 2009.
3. Həsənov R.M. Siyasi sosiologiya (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: “AzTU”, 2010.
4. İsmayılov V., Axundov P., Yusifov S. Sosiologiya (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: “Ləman”, 2016.
5. Rozkin M., Kord R.L., Mideyros C.A., Cons V.S. Siyasət elminə giriş. Bakı: “TEAS” Press, 2019.
6. Səmədov O. Gənclərin sosiallaşması. 20 Avqust 2019, https: //modern. Naz /az/ news/ 209397/genclerin-sosiallasmasi
7. Siyasi sosiologiyanın müasir problemlərinə dair. AMEA Fəlsəfə və Hüquq İnstitutu. Bakı: “Təknur”, 2014.
8. Şirəliyev H., Əhmədov Ə. Politologiya (dərslik). Bakı: “Təbib”, 1997.
9. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: “Təknur”, 2008.

## SPECIFIC FEATURES OF POLITICAL SOCIALIZATION OF YOUTH IN MODERN PERIOD

***Mammadov Asim Shafayat, Jafarova Turkana Aliyaddin***

***Summary***

From the moment an individual is born, the process of his or her integration into the society in which he or she lives begins. From the moment an individual is born, the process of his or her integration into the society in which he or she lives begins. The integration of the individual into society, in parallel with its biological development, continues unabated, gaining new social status. Part of an individual's integration into society is his or her political socialization, which enables him or her to become a participant in political processes.

In such a period, socialization, which reflects the process of integration of the individual into society, as well as political socialization, is exposed to new influences, leaving the hegemony of non-traditional factors of influence. This, in turn, affects the political orientation

of the younger generation. Often, this influence manifests itself in negative shades, with ideas and views that are marginally accepted by the political system, which in some cases leads to political deviations with legal deviations.

This article discusses the process of political socialization, the stages of this process and the social institutions involved in political socialization, and then examines in detail the factors influencing the process of political socialization of young people in modern times. For this purpose, the literature on the subject was studied, and then an attempt was made to determine the effectiveness of the factors influencing the political socialization of young people.

## СПЕСИФИЧЕСКИЕ ЧЕРТЫ ПОЛИТИЧЕСКОЙ СОЦИАЛИЗАЦИИ МОЛОДЕЖИ В СОВРЕМЕННОСТИ

***Мамедов Асим Шафаят огли, Джафарова Тюркане Алиеддин кызы***

***Резюме***

Для каждого индивида процесс интеграции в общество начинается сразу после его прихода в этот мир. Интеграция индивида в общества параллельно его биологическому развитию и обретению новых социальных статусов. Составной частью интеграции индивида в общество является политическая социализация, обеспечивавший индивиду участие в политических процессах.

В такое время социализация отражавшая процесс интеграции индивида в общество, одновременно политическая социализация выходят за рамки влияния нетрадиционных условий и подвергаются новым влияниям. В результате такие условия оказывают огромное влияние к политической ориентации молодого поколения. Часто такие влияния себя показывают в негативных оттенках, основном в идеях и воззрениях которые политическая система воспринимает в качестве маргинальных. Такие оттенки приводят к юридическим отклонениям политической девиации.

Статья отражает процесс политическая социализации, стадии этого процесса, социальные институты политической социализации исследует современные факторы влияющие на этот процесс. Для этой цели было рассмотрено литература относившиеся данной теме, была предпринята попытка эффективность условии оказывающих влияние на политическую социализацию молодежи.

***Rəyçi: f.ü.f.d. Balakişiyev Üzeyir Qara***
***Sosial fənlər kafedrasının 11 fevral 2021-ci il tarixli iclasın 06 saylı protokolu***
***Daxil olduğu tarix 15fevral 2021-ci il***

**УДК:33.**

## СТРАХОВОЙ БИЗНЕС И ЕГО ВЫЗОВЫ В ГРУЗИИ

***Ассоцированный профессор, Маиа Аладашвили***
***Ассоцированный профессор, Нанули Хизанишвили***
***Телавский государственный университет имени Якоба Гогебашвили***
***факультет бизнеса, права и социальных наук***
***iashiukashvili@ yandex. ru***

**Аннотация:** *Страховани – это один из инструментов управления рисков, с помощью которых возможно избежать финансовые потери, которые возникают в результате риска.*

*Страхование играет большую роль и смысл в процессе развития репродуктивног общества.*